Dekabr 2017

# PwC Azerbaijan Times

## 31 saylı Buraxılış

*Buraxılışın əsas xəbərləri:*


- **“Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi**
- **Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**
- **Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu**
- **Qanun layihəsi: “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”**
- **“İnzibati Xətalar Məcəlləsinə dəyişiklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu**
- **PwC Azərbaycan şirkəti Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya Sərgisində iştirak edib**
- **PwC Azərbaycan: Birləşmə və Satınalmalar prosesində əsas məsələ etimaddır**
- **PwC Azərbaycan Azərbaycanda Amerika Ticarət Palatasının təşkil etdiyi Bakıda “Azərbaycanda Etika və Komplayns” mövzusunda konfransına qatılıb**
- **PwC Azərbaycan müxtəliflik və inklüzivliyi təbliğ edir**





Buraxılışda əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa aşağıdakı şəxslərlə əlaqə saxlaya bilərsiniz:

Arif Quliyev, Vergi üzrə məsləhət xidmətləri, İdarəedici Direktor

Arif.guliyev@pwc.com

Samir Hacıyev, Direktor, Hüquqi Praktikanın Rəhbəri

Samir.hadjiyev@pwc.com

Marketinq və Kommunikasiya məsələləri üzrə Rəhbər
Aysel Süleymanova
aysel.suleymanova@pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az



© 2017 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.


### *“Azərbaycan Sənaye Korporasiyası” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi*

Korporasiya aqrar sənaye sahəsində, yüksək texnologiya əsasında yeni şirkətlərin (“startup”ların) inkişafı, istehsalın texnoloji cəhətdən müasirləşdirilməsi, tabeliyindəki müəssisələrdə müasir texnologiyaların tətbiqi ilə yerli və xarici bazarlarda müvafiq sahəyə aid rəqabətqabiliyyətli malların (işlərin, xidmətlərin) istehsalını və satışını təşkil edilməsi, investisiya mühitinin yaxşılaşdırılması və investisiyaların stimullaşdırılması ilə bağlı təkliflər və tədbirlərin hazırlanması, tabeliyindəki müəssisələrdə xarici investorlar və yerli istehsalçılar arasında kommersiya əlaqələrinin genişlənməsi istiqamətində tədbirlərin görülməsi kimi fəaliyyətləri həyata keçirəcəkdir.

### *Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*

Dəyişikliklərlə, Azərbaycan Respublikası vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan hamilə qadınlar və azyaşlı uşaqları olan şəxslər barəsində cəzanın

çəkilməsi təxirə salındıqda - məhkəmə məhkum edilmiş şəxsi cəzanın çəkilməmiş hissəsindən azad edənədək və ya məhkum edilmiş şəxs əsas cəzasının qalan hissəsini çəkib qurtaranadək ölkədən getmək hüququ məhdudlaşdırılacaq.

### *Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*

Mülki Məcəlləyə Daşınmaz əmlakın dövlət reyestrinin açıqlığı ilə bağlı dəyişiklik edilib. Dəyişikliyə görə hüquq sahibinin istəyi ilə “Elektron hökumət” portalında yerləşdirilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında daşınmaz əmlak üzərində sərəncam verildiyi hallarda, çıxarış notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsi ilə “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq real vaxt rejimində əldə ediləcək.

### *Qanun layihəsi: “Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”*

Miqrasiya qanunvericiliyinə təklif edilən dəyişikliklər qəbul edilərsə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan

# PwC Azerbaijan Times

## 31 saylı Buraxılış

Respublikasında olduğu yer üzrə qeydiyyata alınması şərtlərinə yeni hissə əlavə ediləcək. Bu əlavə əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin qeydiyyata alındığı mənzilin (yaşayış sahəsinin) sahibinə məxsus digər mənzildə (yaşayış sahəsində) müvəqqəti qaldıqda, onun olduğu yer üzrə yenidən qeydiyyata alınmasının tələb olunmamasından ibarət olacaq.

### *"İnzibati Xətalar Məcəlləsinə dəyişiklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu*

Dəyişikliklər ilə İnzibati Xətalar Məcəlləsinin "vergilərin, rüsumların ödənilməsi, maliyyə və sığorta qaydaları əleyhinə olan inzibati xətalar" fəslinin 461-ci maddəsinə aşağıdakı əlavə edilib: Vergi ödəyicisi kimi qeydiyyatda olmayan şəxslər tərəfindən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr əsasında xarici dövlətlərdən daxil olmuş məlumat mübadiləsi üzrə sorğuların cavablandırılması üçün tələb olunan məlumat və sənədlərin müəyyən edilən müddətdə təqdim edilməməsinə və ya bilərəkdən təhrif olunmaqla təqdim edilməsinə görə - fiziki şəxslər əlli manat məbləğində, hüquqi şəxslər yüz manat məbləğində cərimə edilir.

### *PwC Azərbaycan şirkəti Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya Sərgisində iştirak edib*

PwC Azərbaycan şirkəti 28-30 noyabr 2017-ci il tarixlərində Bakı Ekspo Mərkəzində təşkil edilmiş Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya Sərgisində "Daşınmaz əmlak, özəlləşdirmə və investisiyalar" mövzusunda keçirilən konfransda iştirak edib.

29 noyabr 2017-ci il tarixində PwC Azərbaycanın Ölkə üzrə İdarəedici Partnyoru Mövlan Paşayev dövlət müəssisələrinin özəlləşdirilməsi prosesi ilə bağlı müzakirədə çıxış edib.

Daha ətraflı məlumat üçün linkə daxil olun: https://www.pwc.com/az/en/press-room/assets/2017/20171130-RecExpo_(ENG).pdf

### *PwC Azərbaycan: Birləşmə və Satınalmalar prosesində əsas məsələ etimaddır*

13 dekabr 2017-ci il tarixində PwC Azərbaycan Landmark Plaza Otel-də Birləşmə və Satınalmalar (M&A) mövzusunda seminar keçirib. Müxtəlif sektorları təmsil edən şirkət rəhbərlərinin iştirakı ilə keçirilən seminarın məqsədi M&A prosesi və onun hüquq və vergi sahəsinə təsiri ilə tanış olmaq, eləcə də M&A əməliyyatları ilə bağlı praktiki bilikləri bölüşmək olub.

PwC qlobal şəbəkəsində kapital sövdələşmələri sahəsində çalışan 15,000-dən çox mütəxəssis ilə dəstəklənən Azərbaycan komandası bütün sənaye sektorları üzrə M&A və maliyyə məsləhəti xidmətləri təklif edir. 2015-ci ildə təsis edilmiş PwC Azerbaycanın dinamik inkişaf edən əqdlər praktikası, tam miqyaslı M&A əməliyyatları aparmaq üçün müştərilərimizə dəstək olmaq üçün 10-dan çox peşəkardan ibarətdir.

Daha ətraflı məlumat üçün linkə daxil olun: https://www.pwc.com/az/en/press-room/assets/2017/20171214-Mergers_and_Acquisitions.pdf

### *PwC Azərbaycan Azərbaycanda Amerika Ticarət Palatasının təşkil etdiyi Bakıda "Azərbaycanda Etika və Komplayns" mövzusunda konfransına qatılıb*

6 dekabr 2017-ci il tarixində PwC Azərbaycan şirkətinin Baş Meneceri Mədina Ömərova Azərbaycanda Amerika Ticarət Palatasının təşkil etdiyi "Azərbaycanda Etika və Komplayns" mövzusunda 1-ci konfransı çərçivəsində panel müzakirəsinə qatılıb. "Təşkilatlarda korrupsiyaya qarşı auditin aparılması üzrə məsləhət və tövsiyələr" mövzusundakı panel ərzində interaktiv müzakirələr və sual-cavab sessiyası baş tutub.

### *PwC Azərbaycan müxtəliflik və inklüzivliyi təbliğ edir*

6 dekabr 2017-ci il tarixində PwC Azərbaycanın Marketinq və Kommunikasiya Rəhbəri Aysel Süleymanova Azərbaycan-Türkiyə İş Adamları Birliyinin (ATİB) Qadınlar Klubunun üzvləri ilə görüşüb və peşəkar inkişafa təkan verən ruhlandıran və fərqlilik yaradan dəyərlər barədə danışıb. Türkiyənin Azərbaycandakı Səfirinin xanımı Məltəm Özoralın, Şimali Kipr Türk Respublikasının Azərbaycandakı səfiri Ufuk Turqanerin və müxtəlif sənayelərdən uğurlu işgüzar xanımların qatıldığı səhər yeməyində xanım Süleymanovaya PwC Azərbaycan və ATIB arasında əməkdaşlığın rəmzi olaraq Təşəkkür Mükafatı təqdim olundu.

PwC-də bir həqiqətdən əminik: mühüm problemləri həll etmək üçün müxtəlif istedadlara malik kadrlara ehtiyacımız var. Bu, hər biri bir-birindən fərqli düşünən və problemlərin həllinə müxtəlif yanaşmağı bacaran işçilərimiz sayəsində mümkündür. Bununla biz, işçi qüvvəsinin 48% qadınlardan ibarət PwC şəbəkəsi olaraq, müxtəlifliyin göstəricisi olan gender bərabərliyinə sadiq qalırıq.